

AzerGold

# KSM

**KORPORATİV SOSİAL MƏSULİYYƏT**

Bakı - 2024

AzerGold

QAPALI SƏHMDAR CƏMİYYƏTİ

Bakı - 2024

# MÜNDƏRİCAT

**HAQQIMIZDA** ........ 06

**KORPORATİV SOSİAL MƏSULİYYƏT** ........ 08

**SAHİBKARLIQ FƏALİYYƏTİNƏ DƏSTƏK** ........ 16

ARIÇILIQ TƏSƏRRÜFATININ İNKİŞAFINA DƏSTƏK ........ 18

KARTOFÇULUQ TƏSƏRRÜFATININ İNKİŞAFINA DƏSTƏK ........ 20

**TƏHSİLİN İNKİŞAFINA DƏSTƏK** ........ 22

YENİ MƏKTƏB BİNASININ İNŞA EDİLMƏSİ ........ 24

KİTAB KÖŞKÜ ........ 26

**İNKLÜZİV İNKİŞAF** ........ 28

GÖRMƏ MƏHDUDİYYƏTLİ İNSANLARA İNNOVATİV DƏSTƏK ........ 30

GƏNCƏ REGİONAL AUTİZM MƏRKƏZİ ........ 31

**SAĞLAMLIQ** ........ 32

SƏYYAR TİBBİ MÜAYİNƏ AKSİYALARI ........ 34

**İDMANIN TƏBLİĞİ** ........ 36

**ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ** ........ 40

EKOLOJİ TƏDBİRLƏR ........ 42

AQRAR SAHƏNİN İQLİM DƏYİŞİKLİYİNƏ ADAPTASİYASI ........ 44

“TƏMİZ DAŞKƏSƏN” LAYİHƏSİ ........ 45

NADİR BİTKİ NÖVLƏRİNİN REİNTRODUKSİYASI ........ 46

BİOLOJİ MÜXTƏLİFLİYİN QORUNMASI ........ 48

SAHƏLƏRDƏ REKULTİVASİYA İŞLƏRİ ........ 50

**İÇMƏLİ SU İLƏ TƏMİNAT** ........ 52

**TARİXİ-MƏDƏNİ İRSƏ TÖHFƏ** ........ 56

“XƏZİNƏ” MUZEY EKSPOZİSİYASI ........ 58

“ÇOVDAR” NEKROPOLU ........ 60

QƏDİM MEMARLIQ VƏ TƏBİƏT İRSİNİN TANIDILMASI ........ 68


Milli
KSM
Mükafatı
AzerGold
08


18


20


22


AzerGold
KİTAB KÖŞKÜ
GÖTÜR
OXU
GƏTİR
26


34


40

**“AzerGold” QSC Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 11 fevral 2015-ci il tarixli 1047 nömrəli Sərəncamına uyğun olaraq təsis edilib, 5 iyul 2016-cı il tarixində dövlət qeydiyyatına alınaraq fəaliyyətə başlayıb.**

Səhmdar Cəmiyyət əlvan və qara metal filizi yataqlarının öyrənilməsini, tədqiqini, kəşfiyyatını, işlənməsini və idarə olunmasını, bu sahədə yeni texnologiyaların tətbiqini, maddi-texniki bazanın müasirləşdirilməsini və ondan səmərəli istifadəni, habelə bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirir.

# HAQQIMIZDA

**“AzerGold” QSC-nin fəaliyyəti korporativ idarəetmə standartlarına uyğun olaraq təşkil edilib. Bütün səhmləri dövlətə məxsus olan Cəmiyyətin ali idarəetmə orqanı səhmdarlarının ümumi yığıncağıdır.**

Azərbaycan Respublikasının Prezidentinin 22 fevral 2021-ci il tarixli 2514 nömrəli Sərəncamına əsasən, Səhmdar Cəmiyyətin ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan İnvestisiya Holdinqinə həvalə edilib.

“AzerGold” QSC-nin fəaliyyətinə ümumi nəzarəti və rəhbərliyi həyata keçirən Müşahidə Şurası Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən 5 üzvdən ibarətdir.

Şirkətin icra orqanı isə kollegial tərkibdə fəaliyyət göstərən İdarə Heyətidir.

# MİSSİYAMIZ

Missiyamız təbii resursları sosial rifaha və dayanıqlı inkişafa çevirməkdir. Şirkətimiz təkcə "Çovdar" mədəni ilə çıxdığı yola hazırda aktiv hasilat işləri aparılan bir neçə qızıl mədəni, istismarına hazırlıq görülən müxtəlif mədənlər və 2 törəmə cəmiyyət ilə davam edir.

"AzerGold" ölkəmizin qeyri-neft sektoru üzrə dövlət ixracatçı subyektləri sırasında lider mövqelərdə qərarlaşıb. Şirkətimiz regionun ən böyük dağ-mədən müəssisəsi olmaq istiqamətində iri və əmin addımlarla irəliləyir.

# STRATEJİ BAXIŞIMIZ

Ölkəmizin dağ-mədən sahəsinin dayanıqlı inkişafının təmin edilməsi məqsədilə "AzerGold" QSC-nin 2035-ci ilədək olan dövr üzrə inkişaf strategiyası hazırlanıb. Sözügedən strategiya dövrün dəyişən iqtisadi tələbləri nəzərə alınmaqla yenilənir.

Məqsəd dünya miqyaslı və aparıcı mədən şirkəti olmaqdır. Bu yolda ilk addım olaraq QSC qızıl mədəni layihələri üzrə maliyyələşmədə dövlət büdcəsindən asılılığın tam aradan qaldırılmasına, daxili imkanlar hesabına böyük investisiya tələb edən bir sıra irimiqyaslı layihələrin icrasına nail olub.

# ƏSAS HƏDƏFLƏRİMİZ

- 2030-cu ilədək illik dövriyyəsi 1 milyard manat olan dağ-mədən şirkətinə çevrilmək;
- Strateji proqramların icrası müddətində dövlət büdcəsindən asılılığı aradan qaldırmaq;
- Qeyri-neft-qaz sənayesi üzrə ən böyük şirkətlərdən, vergi ödəyicilərindən, işəgötürənlərdən biri olmaq;
- Azərbaycanda dağ-mədən sənayesinin yan sahələrinin və zərgərlik sənayesinin innovativ tətbiqlərlə inkişaf etdirilməsinə töhfə vermək.

# KORPORATİV SOSİAL MƏSULİYYƏT



# 6.4 MİLYON ₼

FƏALİYYƏT DÖVRÜ ƏRZİNDƏ KSM LAYİHƏLƏRİNİN İCRASINA SƏRF EDİLƏN VƏSAİT

★ ★ ★

MİLLİ KSM MÜKAFATI 2019

★ ★ ★

"ƏTRAF MÜHİT LAYİHƏLƏRİNƏ DƏSTƏK OLAN ƏN YAXŞI TƏRƏFDAŞ" NOMİNASİYASI

★ ★ ★

MİLLİ KSM MÜKAFATI 2022

★ ★ ★

"AUTİZM DOSTU" MÜKAFATI

Dayanıqlı və inklüziv inkişaf

Təhsil

İdman və sağlamlıq

Maarifləndirmə

Ətraf mühitin mühafizəsi

Sahibkarlıq fəaliyyətinə dəstək

Aqrar inkişaf

Tarixi-mədəni irsə töhfə

# KSM SİYASƏTİMİZ

**Təbii resurslardan səmərəli istifadə, dayanıqlı inkişaf konsepsiyasının tətbiqi və sosial məsuliyyətlilik "AzerGold" QSC-nin idarəçiliyinin təməl prinsiplərini təşkil edir. Səhmdar Cəmiyyətin Sosial təsir və məsuliyyət üzrə siyasəti milli qanunvericilik, dağ-mədən sahəsində ən mütərəqqi beynəlxalq təcrübə, "BMT-nin biznes və insan hüquqları üzrə Rəhbər Prinsipləri"nin tələbləri nəzərə alınmaqla formalaşdırılır və davamlı olaraq təkmilləşdirilir.**

"AzerGold" QSC-nin Sosial təsir və məsuliyyət üzrə siyasəti Cəmiyyətin nəzdində 2017-ci ilin oktyabrından etibarən fəaliyyətə başlamış Korporativ Sosial Məsuliyyət (KSM) Komitəsi tərəfindən formalaşdırılır və icra edilir. Cəmiyyətin ötən dövrlər ərzində ətraf mühitin mühafizəsi, mədəni irsin qorunması və yerli icmaların sosial-iqtisadi inkişafı istiqamətində icra etdiyi layihələr ölkə ictimaiyyəti tərəfindən də yüksək qiymətləndirilir.

Təsadüfi deyil ki, Cəmiyyət ənənəvi olaraq hər il ölkədə korporativ sosial məsuliyyət siyasətinin təşviqi məqsədilə təşkil olunan **"Milli Korporativ Sosial Məsuliyyət"** mükafatına layiq görülən ilk dövlət şirkətidir.

"AzerGold"un 2019-cu ildə həyata keçirdiyi layihələrdən biri – Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi ilə icra edilmiş "Fərdi aqrar təsərrüfatların iqlim dəyişikliyinə adaptasiyası" mövzusundakı təlim layihəsi BMT-nin Baş Assambleyası tərəfindən qəbul edilmiş 17 Dayanıqlı İnkişaf Məqsədinə daxil olan iqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə məqsədi əsas götürülərək, müvafiq nominasiya üzrə qalib seçilib.

2022-ci ildə isə Heydər Əliyev Fondu və "Birgə və Sağlam" İctimai Birliyi ilə tərəfdaşlıq şəraitində icra edilən "Autizm spektr pozuntulu şəxslərin fərdi inkişafına dəstək" layihəsinə görə "AzerGold" QSC yenidən **"Milli Korporativ Sosial Məsuliyyət"** mükafatına layiq görülüb. Səhmdar Cəmiyyət müsabiqədə BMT-nin dayanıqlı inkişaf məqsədlərindən biri olan "Yaxşı səhiyyə və rifah" nominasiyası üzrə qalib elan edilib.

Eyni zamanda Səhmdar Cəmiyyət korporativ sosial məsuliyyət fəaliyyəti çərçivəsində ölkəmizdə autizmli uşaqların fərdi inkişafına verdiyi dəstəyə görə "Birgə və Sağlam" İctimai Birliyi tərəfindən **"Autizm dostu"** diplomuna layiq görülüb. Bundan başqa, "AzerGold" QSC 2023-cü ildə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən **"Korporativ sosial məsuliyyət çərçivəsində ətraf mühit layihələrinə dəstək olan ən yaxşı tərəfdaş"** nominasiyası üzrə təltif edilib.

# SOSİAL MƏSULİYYƏTİMİZ



Şəhid ailələrinə qayğı





Maarifləndirmə




Aztəminatlı ailələrə yardım




Daşkəsən rayonunda qadınların məşğulluğunun artırılması



“Kitab sovqatı” aksiyası



Sosial yardım aksiyası


Səyyar tibbi müayinə aksiyaları







Daşkəsən rayonunda arıçılıq təsərrüfatının inkişafına dəstək







ASP-li uşaqların fərdi inkişafına dəstək







Quşçu qəsəbə tam orta məktəbinin modul tipli yeni binasının istifadəyə verilməsi







Daşkəsəndə məktəbli oğlanlar arasında minifutbol turniri



Daşkəsəndə məktəbli qızlar arasında voleybol turniri



Minifutbol, universal voleybol-basketbol meydançalarının yenidən qurulması




Daşkəsən rayonunda kartofçuluq təsərrüfatının inkişafına dəstək








"Xəzinə" muzey ekspozisiyası





# SAHİBKARLIQ FƏALİYYƏTİNƏ DƏSTƏK





# ARIÇILIQ TƏSƏRRÜFATININ İNKİŞAFINA **DƏSTƏK**

Yerli icmaların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması prioritetinə uyğun olaraq "AzerGold" QSC-nin Korporativ Sosial Məsuliyyət Komitəsi tərəfindən mikro və kiçik sahibkarlıq fəaliyyətinin dəstəklənməsi əsas hədəflərdən biri olaraq müəyyənləşdirilib. Bu məqsədlə 2022 və 2023-cü illərdə "Daşkəsən rayonunda arıçılıq təsərrüfatının inkişafına dəstək" layihəsi icra edilib. Layihədən Çovdar, Quşçu, Bayan, Zəylik kəndlərindən olan 56 nəfər fermer faydalanıb.

Layihə çərçivəsində yerli icmaların layihədən yararlanması imkanlarını müəyyənləşdirmək, arıçılıq fəaliyyəti zamanı təsərrüfat sahiblərinin qarşılaşdıqları çətinliklər və onların aradan qaldırılması yollarını müəyyən etmək məqsədilə arıçı fermerlərlə görüşlər təşkil edilib. Məsləhətçilər tərəfindən arılara yaz qulluğu, beçələmə və ana arıların yetişdirilməsi qaydaları barədə nəzəri təlimlər və praktiki məşğələlər keçirilib.

Fermerlərə damazlıq işinin düzgün təşkili, bal arısı cinslərinin və populyasiyalarının genofondunun qorunub saxlanılması, təkmilləşdirilməsi, həmçinin arı ailələrinə mütəmadi olaraq baytar-sanitar nəzarəti edilməsi, onlara sistemli klinik baxışın keçirilməsi, arıçılığa ziyan vuran xəstəliklərin müalicə və profilaktikası istiqamətində tövsiyələr verilib.  Həmçinin arıçılıq təsərrüfatlarında mütəmadi monitorinqlər aparılıb, xəstəlik əlamətləri müşahidə edilən bəzi arıxanalardan analiz edilməsi üçün nümunələr götürülüb.

Sonda təlimləri uğurla tamamlayan fermerlərə sertifikatlar, fərdi təsərrüfatların genişlənməsinə dəstək məqsədilə tələb olunan ləvazimatlarla tam təchiz edilmiş 216 ədəd arı ailəsi, o cümlədən müvafiq aktivlər təqdim edilib. Həmçinin arıçı fermerlərin ümumi istifadəsi üçün 5 ədəd balsüzən dəzgah təqdim edilib.

















## Daşkəsən rayonunda arıçılıq təsərrüfatının inkişafına dəstək

# KARTOFÇULUQ TƏSƏRRÜFATININ İNKİŞAFINA **DƏSTƏK**

Daşkəsən rayonunda kartofçuluq təsərrüfatının inkişafına da dəstək göstərilib. “AzerGold” QSC-nin təşəbbüsü və təşkilatçılığı, Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə icra edilən layihə Səhmdar Cəmiyyətin hasilat işləri apardığı bölgədə sahibkarlıq ekosisteminin inkişafına, Daşkəsən rayonunun ənənəvi kənd təsərrüfatı sahələrindən biri olan kartofçuluğun sahibkarlıq növü kimi təşviqinə və dəmyə üsulu ilə kartof istehsalının artırılmasına xidmət edir.

Layihəyə Kənd Təsərrüfatı Nazirliyinin “Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi”ndə qeydiyyatda olan, əkinə yararlı minimum 1 hektar torpaq sahəsinə malik Quşçu və Zəylik kənd sakinləri, ümumilikdə 10 nəfər fermer cəlb edilib.

Layihə çərçivəsində fermerlərə Tərəvəzçilik Elmi Tədqiqat İnstitutunun mütəxəssisləri tərəfindən nəzəri və praktiki təlimlər keçirilib. Həmçinin 10 hektar sahəyə yerli iqlim şəraitinə uyğun “Telman”, “Əmiri 600” toxumları səpilib, müvafiq aqro-texniki qulluq göstərilib. Yığım mövsümündə 100 tona yaxın məhsul əldə edilib. Yığılmış məhsulun 85%-i fermerlərə təqdim edilib. Məhsulun 15%-i isə Daşkəsən rayonunda yaşayan aztəminatlı ailələr arasında bölüşdürülüb.



















AzerGold
"Daşkəsən rayonunda kartofçuluq təsərrüfatının inkişafına dəstək" layihəsi
AzerGold
"Daşkəsən rayonunda kartofçuluq təsərrüfatının inkişafına dəstək" layihəsi


HEYDƏR ƏLİYEV FONDU
AzerGold
Heydər Əliyev Fondunun
təşəbbüsü, AzerGold
QSC-nin dəstəyi ilə
Daşkəsən rayonu
Səlmixan İsgəndərov adına
Quşçu qəsəbə
tam orta məktəbin
modul tipli binası
2022 - ci ildə
inşa edilərək istifadəyə veril

# TƏHSİLİN İNKİŞAFINA DƏSTƏK



# YENİ MƏKTƏB BİNASININ **İNŞA EDİLMƏSİ**

Təhsilin inkişafı ilə bağlı həyata keçirilən dövlət siyasətinə dəstək məqsədilə "AzerGold" QSC fəaliyyət göstərdiyi bölgələrdə bu sahədə sosial xarakterli layihələrin icrasını davam etdirir. Səhmdar Cəmiyyət Daşkəsəndə şagirdlərin zəruri dərs ləvazimatları, əlavə oxu vəsaitləri, ucqar kənd məktəblərinin İT avadanlıqları və internet şəbəkəsi ilə təminatı ilə bağlı ardıcıl tədbirlər həyata keçirir.

"AzerGold" QSC-nin Daşkəsəndə təhsilin inkişafı ilə bağlı həyata keçirdiyi layihələrdən biri "Çovdar" qızıl mədəninə yaxınlıqda yerləşən, ucqar Quşçu qəsəbəsində müasir standartlara cavab verən yeni məktəb binasının inşası ilə bağlıdır. Belə ki, Heydər Əliyev Fondunun təşəbbüsü, QSC-nin dəstəyi ilə Birinci Qarabağ müharibəsi şəhidi Səlmixan İsgəndərov adına Quşçu qəsəbə tam orta məktəbinin yeni modul tipli binası inşa olunaraq, 2022-2023-cü tədris ilində müəllim və şagirdlərin istifadəsinə verilib. Tədris prosesi üçün zəruri avadanlıqlar, internet şəbəkəsi, kompüter, mebel və digər inventarlarla təchiz olunan məktəbdə 80 nəfər şagirdin təhsil alması mümkündür.

Bu məqsədlə sözügedən məktəb binasında 10 sinif otağı, 1 müəllimlər otağı və kitabxana yaradılaraq, müəllim və şagirdlərin istifadəsinə verilib.











# KİTAB KÖŞKÜ

Daşkəsən rayonunun ucqar Quşçu kəndinin mərkəzində kitab köşkü quraşdırılıb.

Səhmdar Cəmiyyətin hasilat fəaliyyəti apardığı bölgədə bu günə qədər icra etdiyi "Kitab sovqatı", "Uşaq kitab dostu" kimi bir sıra uğurlu maarifləndirici layihələrin davamı olan "Kitab köşkü" ətraf kənd sakinləri, xüsusilə uşaq və yeniyetmələr arasında mütaliə vərdişlərinin formalaşmasına, asudə vaxtın səmərəli təşkilinə və kitabın kütləvi şəkildə təbliğinə dəstək göstərilməsinə xidmət edir.

Günün 24 saatı ərzində kənd sakinlərinin sərbəst şəkildə kitabları əldə etməsinə imkan yaradan "açıq kitabxana" tipli kitab köşkündə dünya klassiklərinin əsərləri, müasir Azərbaycan və dünya ədəbiyyatı inciləri, həmçinin biznes və özünüinkişaf istiqamətləri üzrə nəfis tərtibatda dərc edilmiş ən yeni kitablar təqdim olunur. Oxucular seçdikləri kitabı mütaliə etdikdən sonra geri qaytarıb digər kitablardan bəhrələnir, bununla yanaşı, paylaşmaq istədikləri nəşri köşkə hədiyyə etməklə digər oxucuların da mütaliə etmələrinə imkan yaradırlar.













DAŞKƏSƏN RAYON MƏDƏNİYYƏT MƏRKƏZİNİN
QUŞÇU KƏND FOLKLOR EVİ
AzerGold
KİTAB KÖŞKÜ
GÖTÜR
OXU
GƏTİR
DÜNYA KLASSİKLƏRİ



# İNKLÜZİV İNKİŞAF



# GÖRMƏ MƏHDUDİYYƏTLİ
# **İNSANLARA İNNOVATİV DƏSTƏK**





Gəncə şəhəri və Daşkəsən rayonunda inklüziv inkişafa töhfə vermək məqsədilə görmə məhdudiyyətli vətəndaşlarımıza Brayl əlifbasını interaktiv yolla daha asan və əyləncəli öyrənməyə kömək edən innovativ "Braille teach" cihazları ianə edilib.

Xüsusilə məktəbəqədər yaşda olan uşaqlara fərdi qaydada Brayl əlifbasını öyrədən, onların asudə vaxtlarının təşkilinə səsli kitablar və oyunlar vasitəsilə dəstək olan cihaz şifahi nitq və əqli inkişaf üçün nəzərdə tutulub. Sözügedən qurğu tiflopedaqoqların iştirakı olmadan əlifba, eləcə də riyazi hesablamaları daha asan və rahat şəkildə öyrənməyə imkan verir.



# GƏNCƏ REGİONAL **AUTİZM MƏRKƏZİ**




Heydər Əliyev Fondunun təşəbbüsü, "AzerGold" QSC-nin dəstəyi, "Birgə və Sağlam" İctimai Birliyinin təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində Gəncə şəhərində regional Autizm Mərkəzi istifadəyə verilib. Autizm Mərkəzi Gəncə şəhəri və ətraf rayonlar, o cümlədən Göygöl, Daşkəsən, Goranboy, Şəmkir və Tovuz rayonlarında autizm spektr pozuntulu (ASP) şəxslərin və onların ailələrinin dəstəklənməsinə xidmət edir.

Layihə çərçivəsində region üzrə ailələr yerli və beynəlxalq mütəxəssislər tərəfindən tibbi və psixo-pedaqoji qiymətləndirmədən keçirilir, risk qrupuna düşən, xüsusi təhsil dəstəyinə ehtiyacı olan uşaq və yeniyetmələrə zəruri dəstək göstərilir. Autizmli uşaqlar məktəbəqədər təhsil, ixtisasəldəetmə, özünüidarəetmə və müstəqil davranış bacarıqlarına yiyələnmə kimi ehtiyaclara uyğun təlim və bərpa prosesinə cəlb olunurlar.






# SAĞLAMLIQ





# SƏYYAR TİBBİ MÜAYİNƏ **AKSİYALARI**

Yerli icmaların, xüsusilə ucqar kənd sakinlərinin səhiyyə sahəsində xidmətlərə əlçatanlığının artırılması məqsədilə "AzerGold" QSC tərəfindən həyata keçirilən tədbirlər bölgələrdə vətəndaşların sağlamlığının qorunması, profilaktik müayinə mədəniyyətinin təbliğinə xidmət edir.

Səhmdar Cəmiyyətin bu istiqamətdə həyata keçirdiyi layihələrdən biri artıq ənənə halını almış səyyar tibbi müayinə aksiyalarıdır. Belə ki, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi və Bakı Sağlamlıq Mərkəzi ilə tərəfdaşlıq çərçivəsində "AzerGold" QSC tərəfindən Daşkəsən rayonunun ucqar kənd sakinləri üçün səyyar tibbi müayinə aksiyaları təşkil edilir. 2021-ci ildən etibarən həyata keçirilən müayinə aksiyaları zamanı ümumilikdə 2000 nəfərdən çox Daşkəsən sakini cərrahiyə, pediatriya, terapiya, endokrinologiya, hepatologiya, otorinolarinqologiya, oftalmologiya, kardiologiya, urologiya, həmçinin onkologiya sahələri üzrə ödənişsiz olaraq tibbi xidmətlərdən yararlanırlar.














SƏYYAR KLİNİKA
AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AKADEMİK ZƏRİFƏ ƏLİYEVA ADINA
MİLLİ OFTALMOLOGİYA MƏRKƏZİ






AzerGold
bakı
sağlamlıq
SƏYYAR TİBBİ MÜAYİNƏ AKSİYASI
13 - 15 SENTYABR
DAŞKƏSƏN RAYONU


AzerGold
VOLEYBOL
TURNİRİ

# İDMANIN TƏBLİĞİ



# **İDMAN MEYDANÇALARININ** YENİDƏN QURULMASI



Bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı yürüdülən dövlət siyasətinə uyğun olaraq, 2022-ci ildə "AzerGold" QSC-nin törəmə cəmiyyəti – "Daşkəsən Dəmir Filiz" MMC-nin balansında olan minifutbol, universal voleybol-basketbol meydançaları yenidənqurma işlərindən sonra istifadəyə verilib.

Səhmdar Cəmiyyətin fəaliyyət göstərdiyi bölgədə, xüsusilə yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkili və onların idmana marağının artırılmasına xidmət edən layihə çərçivəsində yerli sakinlərin meydançalardan mütəmadi istifadəsinə şərait yaradılıb.

Həmçinin məktəbli qızlar və oğlanlar arasında minifutbol, voleybol yarışları təşkil edilərək, Daşkəsəndə idmanın daha da populyarlaşdırılmasına dəstək göstərilir.








Daşkəsəndə məktəbli oğlanlar arasında
**minifutbol turniri**

Daşkəsəndə məktəbli qızlar arasında
**voleybol turniri**










# ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ


AzerGold

# EKOLOJİ **TƏDBİRLƏR**

“AzerGold” QSC filiz yataqları üzrə fəaliyyətinin ətraf mühitə göstərə biləcəyi mümkün təsiri haqqında məlumatlıdır. Bu təsirin ədalətli şəkildə tənzimlənməsi milli qanunvericilik, dağ-mədən sahəsində ən mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla formalaşdırılan Sosial təsir və məsuliyyət üzrə siyasət çərçivəsində həyata keçirilir.

Səhmdar Cəmiyyət tərəfindən hər bir filiz yatağının işlənməsi və istismarı üzrə ətraf mühitə təsirin qiymətləndirilməsi sənədi hazırlanaraq təsdiq edilir. Sənəd ictimai dinləmədə müzakirə edilir, müzakirələrə aidiyyəti üzrə fiziki şəxslər, vətəndaş cəmiyyəti institutları və elmi təşkilatların təmsilçiləri dəvət edilir. Ekspertlər tərəfindən irəli sürülən təkliflər baxılması və sözügedən sənədə daxil edilməsi üçün protokollaşdırılır.

Ekoloji monitorinq proqramına uyğun hasilat ərazilərində tozölçmə işləri həyata keçirilir, torpaq, su hövzələri və su tutarlarından götürülən nümunələr əsasında təhlillər aparılır. Həmçinin istehsalat prosesi nəticəsində yaranan bütün növ tullantılar, o cümlədən civə, aktiv karbon, yağ, akkumulyator və PET şüşələr təkrar emal üçün yönəldilir.

Bütün bunlarla yanaşı, mütəmadi olaraq iməcilik aksiyaları, ətraf mühitə töhfə vermək və ekosistemin bərpası üçün ağacəkmə tədbirləri həyata keçirilir, su hövzələrinə balıq körpələri buraxılır, ağaclara quş yuvaları asılır, yemliklər quraşdırılır, quşların sərt qış aylarında mövsümi yem ehtiyacları qarşılanır.




RİİB
YAŞIL DÜNYA NAMİNƏ
HƏMRƏYLİK İLİ 2024
AzerGold







# AQRAR SAHƏNİN İQLİM **DƏYİŞİKLİYİNƏ ADAPTASİYASI**



Kənd təsərrüfatının inkişafı iqlim dəyişikliyi ilə mübarizə, ölkəmizin də könüllü olaraq qoşulduğu BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə töhfə vermək məqsədi ilə “Fərdi aqrar təsərrüfatların iqlim dəyişikliyinə adaptasiyası” mövzusunda təlimlər təşkil edilib.

Layihədə ölkəmizin müxtəlif şəhər və rayonlarında kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən 50-yə yaxın kəndli-fermer iştirak edib. Onlara aidiyyəti dövlət qurumları, elm və təhsil ocaqları, müstəqil ekspertlər tərəfindən iqlim dəyişikliyi şəraitində su, torpaq və bitki idarəçiliyi, kənd təsərrüfatında mövcud innovasiyalarla bağlı təlimlər keçirilib, iqlim dəyişikliyinə məruz qalan təsərrüfatlara qanunvericiliklə nəzərdə tutulmuş güzəştlər haqqında ətraflı məlumat verilib.






# “TƏMİZ DAŞKƏSƏN”
# LAYİHƏSİ




“Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində “Təmiz Daşkəsən” ekoloji layihəsi icra edilib.

Layihə çərçivəsində Daşkəsən rayonunun Quşçu və Xoşbulaq kəndlərində, eləcə də Qoşqarçay və Zəylin çaynın sahilində təmizlik aksiyaları keçirilib.

Aksiya iştirakçıları əraziləri plastik, polietilen, metal, şüşə, kağız, karton və digər tərkibli tullantılardan təmizləyiblər. Yığılmış tullantılar çeşidlənərək, təkrar emala yönəldilib.

Həmçinin Daşkəsən rayonu ərazisində  yeni tullantı konteynerləri və zibil qutuları yerləşdirilib, ağaclardan ekoloji təmiz boya ilə rənglənmiş quş yuvaları asılıb.





# NADİR BİTKİ NÖVLƏRİNİN **REİNTRODUKSİYASI**

“Daşkəsən rayonunda nadir və nəsli kəsilmək təhlükəsində olan bitki növlərinin çoxaldılması və reintroduksiyası” layihəsi icra edilib.

2021-ci ildən həyata keçirilən layihə çərçivəsində hər il “Çovdar” mədəni ətrafındakı dağlarda nəsli kəsilmək təhlükəsində olan “Rosa zangezura Jarosch.” (Zəngəzur itburnusu), “Rosa nisami Sosn.” (Nizami itburnusu), “Rosa pulverulenta M.Bieb” (qovuqlu itburnu), “Frangula grandiflora A.Pool.” (iriyarpaq kövrək mürdəşər) və digər bitkilər aşkarlanaraq, toxumları yığılıb, çeşidlənib, müvafiq dərman vasitələri ilə qurudulub və xüsusi aqrotexniki qaydada təcrübə sahəsində yetişdirilib.

Daha sonra həmin bitki kollarının “Çovdar” mədəni ətrafında ayrılmış geniş ərazidə əkini, reintroduksiyası həyata keçirilib.

“Qırmızı kitab”ın 2023-cü ildə nəşr edilən 3-cü nəşrində “AzerGold” QSC-nin icra etdiyi bu ekoloji əhəmiyyətli layihə öz əksini tapıb.



“Rosa zangezura Jarosch.” (Zəngəzur itburnusu)

# BİOLOJİ
# MÜXTƏLİFLİYİN QORUNMASI



Daşkəsən rayonunda bioloji müxtəlifliyin qorunmasına töhfə vermək məqsədilə bir sıra tədbirlər həyata keçirilir.

Təşkil edilən tədbir, ekoloji aksiyalar zamanı Güney-Zağalı su anbarına 2000-dən çox qızılxallı forel körpələri buraxılıb, Daşkəsən şəhərinin mərkəzi və ucqar kəndlərində ağaclara quş yuvaları asılıb, quş yemlikləri quraşdırılıb. Bundan əlavə, sərt qış aylarında quşların yem ehtiyaclarının qarşılanması diqqət saxlanılır.

Ətraf mühitə sevgi və qayğı hisslərinin aşılanması məqsədilə keçirilən aksiyalara könüllülər və məktəblilər də dəvət olunur, onlarla maarifləndirici söhbətlər aparılır, biomüxtəlifliyin qorunmasının təbii mühitin sağlamlığı, havanın təmizlənməsi, iqlim dəyişikliyinin qarşısının alınması və digər aspektlərdən vacibliyi aşılanır, təbiəti qorumağa, ekoloji sahədə fəaliyyətlərdə daha da aktiv və təşəbbüskar olmağa çağırış edilir.




AzerGold


AzerGold
AzerGold





# SAHƏLƏRDƏ
# REKULTİVASİYA İŞLƏRİ




Mədənçilik fəaliyyətində ətraf mühitin mühafizəsi məsələlərini daim diqqətdə saxlayan “AzerGold” QSC “Ağyoxuş-1” qızıl mədənində istismar işlərini yekunlaşdırdıqdan sonra 2022-ci ildə rekultivasiya planının icrasına başlayıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Ekspertiza Agentliyi tərəfindən yataq üzrə təsdiqlənmiş rekultivasiya planının birinci mərhələsi çərçivəsində mədənin boş süxur anbarı ərazisində əvvəlcə texniki rekultivasiya işləri icra edilib, ərazinin münbit torpaq qatı bərpa edilib, yamacbərkitmə və səth axınlarının idarə olunması məqsədi ilə yamaclarda terraslar yaradılıb. Daha sonra bioloji rekultivasiya işləri həyata keçirilərək, ərazidə yaşıllaşdırma işlərinə başlanılıb.

**Bu, ölkənin dağ-mədən sahəsində istismarı tamamlanmış qızıl mədəni ərazisi üzrə ilk rekultivasiya layihəsidir.**

- Ərazinin münbit torpaq qatı bərpa edilib;
- Yamaclarda terraslar yaradılıb;
- Ərazidə yaşıllaşdırma işlərinə başlanılıb;
- 600 ədəd eldar şamı əkilib, 10 kiloqram qoz, 200 kiloqram yonca toxumları səpilib.




QAYĞI


AzerGold
TƏBİƏTƏ QAYĞI MİSSİYAMIZDIR!
2020-2021-ci illər ərzində "AzerGold" QSC
hasilat işləri həyata keçirilən "Ağyoxuş-1"
rekultivasiya planına əsasən, 2022-ci ildə
anbarının münbit torpaq qatı bərpa edilib,
ağacı və müxtəlif bitki toxumları əkilib.
"Ağyoxuş-1" mədəni 2017-ci ildə Cəmiyyətin
tərəfindən kəşf edilmiş "Ağyoxuş" yataqlar
aiddir.



# İÇMƏLİ SU İLƏ TƏMİNAT


AzerGold
Bu bulaq "AzerGold" QSC
tərəfindən 2019-cu
ildə inşa edilib

# YERLİ İCMALARIN İÇMƏLİ SU İLƏ **TƏMİNATININ YAXŞILAŞDIRILMASI**

Daşkəsən rayonunda, xüsusilə Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsinə yaxınlıqda yerləşən ucqar kəndlərdə əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır.

Bugünədək "AzerGold" QSC tərəfindən Çovdar, Çaykənd, Şadax kənd və yaşayış sahələrində içməli su xətləri bərpa edilib, yeni su xətləri çəkilib, bulaqlar inşa edilib. Bundan başqa, Yuxarı Daşkəsən qəsəbəsi və Mədənçilər yaşayış sahəsində yeni içməli su şəbəkəsi yaradılıb.

Layihə BMT-nin 17 Dayanıqlı İnkişaf Məqsədindən biri olan təmiz suyun hər kəs üçün əlçatanlığının təmin edilməsi istiqamətində həyata keçirilən və ölkəmizin də könüllü olaraq qoşulduğu qlobal fəaliyyətə, qəbul etdiyi milli inkişaf prioritetlərinə əlavə töhfə vermək məqsədi daşıyır.
















# TARİXİ-MƏDƏNİ İRSƏ TÖHFƏ



# “XƏZİNƏ” MUZEY EKSPOZİSİYASI

2024-cü ildə “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin təşəbbüsü, “AzerGold” QSC-nin dəstəyi ilə Şirvanşahlar Sarayı Kompleksində Azərbaycanda zərgərlik sənəti və numizmatika nümunələrinə həsr edilən “Xəzinə” muzey ekspozisiyası yaradılıb.

Ölkəmizin qədim zərgərlik ənənələrinin və numizmatika irsinin təbliği məqsədilə yaradılan muzey ekspozisiyasında antik çağlardan XX əsrə qədər uzanan dövrə aid qiymətli eksponatlar nümayiş olunur.

Qədim zərgərlik məmulatları və pul nişanları ilə yanaşı, müasir dövlətimizin iqtisadi qüdrətinin göstəricilərindən biri hesab edilən, ən yeni texnologiyalar əsasında istehsal edilən sikkələr ekspozisiyada nümayiş etdirilir.








Xəzinə
"AZƏRBAYCANDA ZƏRGƏRLİK SƏNƏTİ VƏ NUMİZMATİKA NÜMUNƏLƏRİ" MUZEY EKSPOZİSİYASININ AÇILIŞI
"İÇƏRİŞƏHƏR" QIZIL SİKKƏ KOLLEKSİYASININ TƏQDİMAT MƏRASİMİ
İÇƏRİŞƏHƏR / ŞİRVANŞAHLAR SARAYI

# “ÇOVDAR” NEKROPOLU

**“AzerGold” QSC milli-mədəni irsin qorunmasına xüsusi həssaslıqla yanaşır. Səhmdar Cəmiyyət Sosial təsir və məsuliyyət üzrə siyasəti çərçivəsində tarixi əhəmiyyət daşıyan abidələrin, arxeoloji tapıntıların mühafizəsi, elmi cəhətdən araşdırılması, tədqiqi və təbliği istiqamətində bir sıra ciddi addımlar atmaqdadır.**

2019-cu ilin fevral ayında “AzerGold” QSC-nin Daşkəsən rayonunda yerləşən “Çovdar” mədənində aparılan tikinti işləri zamanı qədim məzar nümunələri aşkar edilib. Ərazidə tikinti işləri dərhal dayandırılıb, aidiyyəti üzrə çöl-tədqiqat işlərinin həyata keçirilməsi üçün Arxeologiya və Antropologiya İnstitutuna müraciət edilib. Nəticədə institut tərəfindən “Daşkəsən” arxeoloji ekspedisiyası təşkil edilib.

Heydər Əliyev Fondu və “AzerGold” QSC-nin dəstəyi ilə layihənin birinci mərhələsi üzrə 5 ay müddətində davam edən arxeoloji qazıntı işləri zamanı 156 qəbir aşkarlanıb. Qəbirlərdən 6000-dən çox eksponat çıxarılıb.

Tapılan əşyalar Son tunc-Erkən dəmir (e.ə.II min.sonu – I min. əvvəli) dövründə geniş yayılmış Xocalı-Gədəbəy mədəniyyətinə aid edilir.







## Kameral tədqiqatlar

“Çovdar” nekropolu layihəsinin növbəti mərhələsi olaraq aşkar edilmiş tapıntılar üzərində kameral tədqiqat işləri həyata keçirilib. Layihə çərçivəsində 156 qəbrin yerləşmə planı hazırlanıb. 619 ədəd saxsı qab, 833 ədəd tunc və dəmir məmulat, 2243 ədəd xırda tapıntı bərpa edilib. Bununla yanaşı, 136 insana aid sümüklər öyrənilib. Növbəti mərhələdə antropologiya sahəsində zəngin təcrübəyə malik yerli və əcnəbi mütəxəssislərin birgə əməkdaşlığı ilə nüfuzlu beynəlxalq laboratoriyalarda insan qalıqları əsasında DNT, radiokarbon, karbon və azot izotopları üzrə analizlər aparılıb.

**DNT analizi Xocalı-Gədəbəy mədəniyyətinin tədqiqi üzrə ilk dəfə məhz “Çovdar” nekropolu layihəsi çərçivəsində həyata keçirilib.**

## Laborator analizlər

DNT analizi qədim tayfaların regionun digər xalqları ilə qohumluq əlaqələri barədə genetik məlumatların əldə edilməsinə imkan verir.

Digər analizlər nəticəsində qədim tayfaların burada məskunlaşma tarixi, dəfn olunanların cinsi, yaşı, xəstəlikləri, ölüm səbəbləri, qida rasionu haqda detallı məlumatlar əldə etmək mümkündür. Bununla da qədim insanların məişəti, həyat tərzi, məşğulluqlarını öyrənmək, həmin dövr üçün bölgədə xarakterik olan epidemik xəstəlikləri araşdırmaq olar. Həmçinin nekropoldan tapılmış metal əşyalar üzərində həyata keçirilən spektral analizlər onların tərkibinin öyrənilməsinə imkan verir. Sözügedən araşdırma xarici ölkələrlə ticari münasibətləri, həmin dövrdə sənətkarlığın inkişaf səviyyəsi, istifadə edilən metal əşyaların xammal mənbələrini də öyrənməyə imkan verir.

Elmi tədqiqatların davamı olaraq, Daşkəsən rayonunun Çovdar kəndi və ətraf ərazilərinin qədim geoloji dövrlərdə flora və faunası, bölgənin landşaftı və tədqiq olunan dövrdə ərazidə əhalinin məskunlaşma sıxlığı öyrənilib.

Laborator tədqiqatlar Türkiyənin Hacettepe Universiteti, Orta Doğu Teknik Universiteti, Türkiyə Bilimsel və Teknolojik Araştırma Kurumu, İtaliyanın Milli Tədqiqatlar Şurası və Yaponiyanın Tokio Universitetinin laboratoriyalarında həyata keçirilib.

**Layihənin əsas məqsədi qədim mədəni irsimizin tədqiq və təbliğ olunması, onların konservasiya edilərək gələcək nəsillərə çatdırılmasıdır.**










AzerGold
ÇOVDAR NEKROPOLU: ARXEOLOJİ
TAPINTILARIN ÖYRƏNİLMƏSİ VƏ TƏDQİQİ
CHOVDAR NECROPOLIS: STUDY AND
OF
ARCHEOLOGICAL
AzerGold
ÇOVDAR NEKROPOLU:
TAPINTILARIN ÖYRƏNİLMƏSİ
CHOVDAR NECROPOLIS: STUDY
OF
ARCHEOLOGICAL

## “Sənaye öhdəlikləri: arxeologiya və mədəni irsə töhfə”

2019-cu ildə Heydər Əliyev Fondunun təşəbbüsü, BP Azərbaycan, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, “AzerGold” QSC və Avstriyanın “Atelier Erich Pummer” şirkətinin təşkilatçılığı ilə “Sənaye öhdəlikləri: arxeologiya və mədəni irsə töhfə” mövzusunda simpozium keçirilib.

“Daş salnamə” muzeyində müxtəlif müəssisə və təşkilatların mədəni irsin qorunması istiqamətində həyata keçirdikləri layihələrin ictimaiyyətə təqdim edilməsi, bu sahədə görülən işlərə dair təcrübə mübadiləsi, eyni zamanda qazıntı işləri zamanı üzə çıxarılan arxeoloji tapıntıların daha dərindən öyrənilməsi və təbliği məqsədilə təşkil olunmuş beynəlxalq tədbirdə “Çovdar” nekropolu layihəsi çərçivəsində görülmüş işlərin təqdimatı keçirilib.

Tədbir çərçivəsində qazıntılar zamanı aşkarlanmış maddi-mədəni irs nümunələrindən ibarət xüsusi ekspozisiyanın açılışı olub.



















**“Çovdar” nekropolundan aşkar edilmiş artefaktlar**
“Daş salnamə” muzeyinin ekspozisiyasında





# QƏDİM MEMARLIQ VƏ TƏBİƏT İRSİNİN **TANIDILMASI**

Xalqımızın milli-mədəni irsinin qorunmasına xüsusi həssaslıqla yanaşan "AzerGold" QSC tarixi əhəmiyyət daşıyan abidələrin, arxeoloji tapıntıların mühafizəsi, elmi cəhətdən araşdırılması, tədqiqi və təbliği istiqamətində bir sıra layihələr icra edir. Qeyd edilən layihələrin davamı olaraq, Daşkəsən rayonu ərazisində mövcud olan tarixi, həmçinin təbiət abidələrinin tanıdılmasına töhfə vermək məqsədilə təqvim-kataloq hazırlanıb. Kataloqda qədim yaşayış məskənləri, mağaralar, körpülər, məbəd və türbələr haqqında müxtəlif mənbələrdən toplanmış məlumatlar öz əksini tapıb.





Birtağlı körpü





Xoşbulaq türbəsi





Zəylik monastırı



Ləzgi qayası

# BİZİ İZLƏYİN

www.azergold.az

azergoldqsc

azergold.az

info@azergold.az

+99412 505 02 02

Mikayıl Müşfiq küç., 2H

© AzerGold

